Xalq qəzeti.- 2019.- 30 dekabr.- S.9.

# Kiyevdə "Azərbaycan diasporu" kitabı təqdim olunub




**Ukrayna Azərbaycanlıları Radasının (UAR) Kiyevdəki mərkəzi qərargahında Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş toplantı və filologiya elmləri doktoru, tanınmış jurnalist Rövşən Raqifoğlunun (Məmmədov) "Azərbaycan diasporu" əsərinin təqdimatı keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, tədbirdə Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporunun (UABD), Ukrayna Azərbaycanlıları Alimlər Şurasının, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin (BUAK) rəhbərləri və üzvləri, bir sıra vilayətlərin diaspor rəhbərləri, tanınmış soydaşlarımız iştirak ediblər.



UABD sədri, hüquq elmləri doktoru Hikmət Cavadov, BUAK sədri, Ukrayna Millətlər Assambleyasının prezidenti Rövşən Tağıyev, azərbaycanlı alimlər Fərhad Turanlı və Arif Quliyev, Ukraynanın Xalq artisti Qurban Abbasov və digərləri çıxış edərək, qarşıdan gələn bayramlar münasibətilə soydaşlarımızı təbrik ediblər. Qeyd edilib ki, əvvəlki illərə nisbətən 2019-cu il Ukrayna azərbaycanlıları üçün daha məhsuldar keçib. Soydaşlarımız Ukraynada yüksək vəzifələrə irəli çəkiliblər, Diasporla İş üzrə Dövlət Komitəsinin iştirakı ilə bir sıra yeni layihələr gerçəkləşdirilib. Onlar Ukrayna Prezidenti Vladimir Zelenskinin bu yaxınlarda Azərbaycana rəsmi səfər etməsinin Azərbaycan diasporunun fəaliyyətinə böyük təkan verəcəyinə əminliklərini ifadə ediblər.

Daha sonra milli diasporumuzun fəaliyyətində ilk nəzəri əsər olan "Azərbaycan diasporu" kitabının təqdimatı keçirilib. Bildirilib ki, artıq kitab Ukraynada bütün Azərbaycan mərkəzlərinə, gənclər təşkilatlarının fəallarına çatdırılıb və bu proses növbəti aylarda da davam edəcək. Kitab həm elmi vəsait, həm də qlobal informasiya savaşında iştirak edə bilən azərbaycanlıların istifadəsi baxımından çox vacib nəşrdir.

Əsərdə maraqlı statistik rəqəmlər açıqlanıb, dərin təhlil aparılıb, gələcək vəzifələr göstərilib. Kitabda azərbaycançılıq ideologiyasına uyğun olan əsas strategiya və hədəflər müəyyənləşdirilib, elmi araşdırmalara geniş yer verilib. "Azərbaycan diasporu" əsərinin digər dillərə tərcümə edilməsi, xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız arasında yayılmasının zəruriliyi bildirilib.

Qeyd edək ki, "Azərbaycan diasporu" kitabı Rövşən Raqifoğlunun üçüncü elmi əsəridir.

Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilən layihələr barədə video-çarxlar nümayiş olunub.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***